

*Soranlara bən bu yurdun*
*Anlatayım, nəsiyəm:*
*Bən çeynənən bir ölkənin*
*“Haqq!” bağıran səsiyəm!*

*Əhməd Cavad*

# Milli istiqlal şairi Əhməd Cavad

**(1892-1937)**

Əhməd Cavad Məhəmmədəli oğlu Axundzadə 1892-ci il mayın 5-də Şəmkirin Seyfəli kəndində anada olub. Altı yaşında ikən atasını itirən Əhməd ilk təhsilini mollaxanada alır. Sonra ailələri Gəncəyə köçür. O, buradakı Şah Abbas məscidinin nəzdində fəaliyyət göstərən ruhani seminariyasında təhsil alır. Seminariyanın müəllimləri uşaqlara yalnız dərs vermir, həm də onlarda milli vətənpərvərlik ruhu formalaşdırıblar. Onların arasında şair Hüseyn Cavid, ədəbiyyatşünas Abdulla Sur, Şeyxülislam Pişnamazzadə kimi dövrünün tanınmış simaları var idi. Əhməd tezliklə seminariya müəllimlərinin sevimli tələbələrindən birinə çevrilir. Hüseyn Cavidlə tez-tez ünsiyyətdə olması və onun şeirlərini dinləməsi Əhmədi də yazmağa ruhlandırır. O, ilk şeirlərini də məhz seminariyada oxuyarkən qələmə alır. Bundan əlavə, müəllimlərinin milli-mənəvi ruhlu söhbətlərini dinləməsi, türk xalqlarının düşdüyü vəziyyət, gələcəyi barədə seminariyada gedən söhbətlər Əhməd Cavadın gələcək həyat yolunun müəyyən edilməsində, onun bütün varlığı ilə milli istiqlal yolunda mücadiləyə başlamasında böyük rol oynayır.

Əhməd seminariyada ərəb, fars, rus dillərini mükəmməl öyrənir. 1912-ci ildə təhsilini bitirərək müəllimlik şəhadətnaməsi alan Əhməd Cavad əmək fəaliyyətinə başlayır. Yaradıcılığa lirik şeirlərlə qədəm qoyan gənc şairin əsərləri 1913-cü ildən çap olunmağa başlayır. "Qoşma" adlı ilk şeirlər kitabı isə üç il sonra, 1916-cı ildə çapdan çıxır.

Bunlar işığa can atan, fəqət taleyi qaranlıqdan keçən Əhməd Cavadın həyatının başlanğıcıdır. O, yüksək istedada malik, vətənini, xalqını bütün qəlbi ilə sevən bir türk oğlu idi. Odur ki, əsrin əvvəllərində Türkiyənin düşdüyü ağır vəziyyət onu ciddi narahat edir. Şair və pedaqoq Abdulla Şaiqlə birlikdə könüllü

əsgər kimi İstanbulda qurulan "Qafqaz könüllü hissəsi" sıralarına qatılır. 1914-cü ildə başlanan Birinci Dünya müharibəsi gedişində Türkiyənin şərq cəbhəsindəki döyüşləri Sarıqamış uğursuzluğu ilə nəticələnir. Ölkənin rus ordusunun işğalı altında olan Qars və Ərzurum əhalisi rus və erməni dəstələri tərəfindən qırğına məruz qalır. Bakıda yerləşən "Azərbaycan xeyriyyə cəmiyyəti" Türkiyənin şərq vilayətlərindəki əhaliyə yardım edir. Bu işdə Əhməd Cavad da yaxından iştirak edir, Bakı ilə Qars arasında rusların törətdikləri maneələrə baxmayaraq gedib-gəlir, yardım işlərində yorulmadan çalışır. Qardaş xalqın ağır günündə Qarsda qarşılaşdığı ürək parçalayan mənzərəni bədii şəkildə "Nə gördümsə" şeirində dilə gətirir:

Ərməğanım yaslı nəğmə,
Bir quş oldum, çıxdım yola.
Getdim, gördüm dost elində
Nə bir səs var, nə bir layla.

Əhməd Cavad bu tarixi şeiri 1915-ci il martın 22-də yazır. Çünki 1914-cü ildə Osmanlı dövlətinin müharibədə iştirak etməsindən həyəcanlanan Əhməd Cavad "Qara dəniz" şeirini yazıb və böyük ümidlərlə yaşayıb. "Qara dəniz" şeirinin son bəndi belə bitir:

Dost elindən əsən yellər
Mənə şeir... salam söylər.
Olsun bizim bütün ellər
Qurban Türkün bayrağına.

Əhməd Cavadın "Çırpınırdın, Qara dəniz" şeirinin sözlərinə yazılmış mahnı (musiqisi Üzeyir Hacıbəylinindir) bütün türk dünyasının azadlıq və mübarizə himninin əks-sədasıdır.

Birinci Dünya müharibəsinin axırlarında Qafqaz cəbhəsində türk ordusu müvəffəqiyyət qazanır. 1918-ci ildə türk ordusu qardaş Azərbaycanın istiqlalına köməyə gəlir. Azərbaycan və türk birlikləri Bakını erməni-rus işğalından azad edir. Əhməd Cavad azərbaycanlı və türk əsgər yoldaşları ilə Bakının Yasamal dağındakı səngərlərdə düşmənlə vuruşur. Bu döyüş meydanında Əhməd Cavadın yazdığı "Bismillah" şeiri milli həyəcana malik olan dəyərli lirik əsərlərindən biridir:

Atıldı dağlardan zəfər topları,
Yürüdü irəli əsgər, Bismillah.
O Xan sarayında çiçəkli bir qız,

Bəkliyor bizləri zəfər, Bismillah.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını milli tariximizin ən parlaq səhifəsi kimi sevinclə qarşılayan Əhməd Cavad 1919-cu ildə müstəqil dövlətimizin himnini - "Azərbaycan marşı"nı yazır. Şairin Azərbaycan bayrağına ithaf etdiyi şeir də onun üçrəngli, ay-ulduzlu bayrağımıza böyük sevgisinin bədii ifadəsidir:

Türküstan elləri öpüb alnını
Söyləyir dərdini sana, bayrağım!
Üç rəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın sana, bayrağım!..

Azərbaycan milli-azadlıq mücadiləsinin öndəri və Şərqdə qurulan ilk demokratik cümhuriyyətin banilərindən biri Məhəmməd Əmin Rəsulzadə yazırdı: "O, şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı istiqlal mübarizəsinə bir ordudan daha çox xidmət göstərdi. Onun qələmi minlərlə süngüyə bərabər idi".

1919-cu ildə Əhməd Cavadın "Dalğa" adlı şeir kitabı nəşr olunur.

1920-ci ildə cümhuriyyətin süqutundan sonra şair Qusarın Xuluq kəndinə köçərək müəllimlik edir.

Əhməd Cavad 1922-ci ildə Bakıda Pedaqoji Ali Məktəbə daxil olur. "Maarif və mədəniyyət" jurnalında işləyə-işləyə Ali Pedaqoji İnstitutu bitirən Əhməd Cavadın sonrakı pedaqoji fəaliyyəti ali məktəblərlə bağlı olub. Bir müddət Azərbaycan Politexnik İnstitutunda, Kənd Təsərrüfatı İnstitutunda (Gəncə) dərs deyib, rus dili üzrə Azərbaycanın ilk professorlarından biri olub.

Əhməd Cavadın məşhur "İstiqlal uğrunda şeirlər" kitabı 1928-ci ildə İstanbulda işıq üzü görür və bununla da həmin dövrdə mətbuatda Əhməd Cavadın əleyhinə hücumlar başlayır.

Yazıçı Əbdürrəhim bəy Haqverdiyevlə xalq artisti Hüseynqulu Sarabski o vaxt mətbuatda şairi müdafiə etsələr də, hücumlar onu Bakıdan dərbədər salır. Əhməd Cavad Gəncəyə köçür. Gəncədə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda Azərbaycan və rus dilləri kafedrasında müəllim, dosent, kafedra müdiri (1930-33-cü illər) vəzifələrində çalışır. Amma onu “unutmurlar”.

Böyük şairin 1930-cu ildə yazdığı «Kür» şeiri isə onu yenidən tənqid hədəfinə çevirir. Xüsusən bolşevik məddahları Əhməd Cavadın şeirdə işlətdiyi son misralarını belə qəbul edirlər ki, şair yeni həyatı bəyənmir, bəzi quruculuq işlərindən narazıdır, köhnə dövranı üstün tutur.

1934-cü ildən Azərbaycan Şura Yazıçılar İttifaqının üzvü olan şair Bakıya qayıdandan sonra Azərbaycan Dövlət Nəşriyyatının tərcümə şöbəsində redaktor (1934), «Azərbaycanfilm» studiyasında sənədli filmlər şöbəsinin müdiri (1935-1936) işləyir. Amma ondan yenə də əl çəkmirlər. Azərbaycan Şura Yazıçılar İttifaqının, Azərbaycan KP MK-nın plenumlarında, iclaslarında yenə də tənqidlərə, təzyiqlərə məruz qalır. Qələmindən çıxan hər sətirdə siyasi məna, pantürkist düşüncələr axtarırlar. Nəticədə işdən qovulur, yazdığı əsərlərin qonorarlarını vermirlər, əsərləri, tərcümələri (Ş.Rustavelinin «Pələng dərisi geymiş qəhrəman» və s.) oğurlanır.

Xüsusilə də Yazıçılar İttifaqının plenumlarında şairi kəskin tənqid edirlər. Əhməd Cavad bütün bu zərbələrə mərdliklə dözür, əleyhdarlarının adi ədəbi faktlara kəskin siyasi don geydirmələrinə təmkin göstərirdi. Hücumlar isə öz nəticəsini verir.

1937-ci il. Dövrün qara yelləri başlayır. Mətbuat səhifələrində Əhməd Cavada qarşı mənhus iftira kampaniyası getdikcə genişlənir.

1937-ci ilin martında Əhməd Cavad Yazıçılar İttifaqından «xalq düşməni» kimi çıxarılır. 1937-ci ilin iyun gecələrinin birində şairi həbs edirlər. Dustaq sayı 1112 olan şairin istintaq işi 1937-ci ilin 25 sentyabrında başa çatır. 12 oktyabr 1937-ci ildə SSRİ Ali Məhkəmə Hərbi Kollegiyasının Səyyar Sessiyası tərəfindən “Müsavat” Partiyasının üzvü kimi, əksinqilabi millətçilik fəaliyyətinə görə I kateqoriya ilə güllələnməyə məhkum edilir.

Nə qədər ki, hakimlik var, məhkumluq var, mən varam.
Zülmə qarşı üsyankaram, əzilsəm də, susmaram! –

- deyən böyük istiqlal şairi, azərbaycançılıq, türkçülük ideyalarının yorulmaz təbliğatçısı, həyatı boyunca bir an olsun belə ideallarından əl çəkməyən, həm ictimai fəaliyyəti, həm də bədii yaradıcılığı ilə tarix səhifəsindən üzüağ çıxan vətən oğlu, mübarizlik, qəhrəmanlıq nümunəsi Əhməd Cavad güllələnir.

Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan çox qüdrətli bir insana "xalq düşməni" damğası vurulur. Şairin evində aparılan

axtarış zamanı mənzilindən əmlakını, hətta həyat yoldaşı Şükriyyə xanımın daş-qaşını, bəzək əşyalarını da müsadirə edirlər.

Şairin sağ qalan ailə üzvlərinin taleyi isə daha ağır və faciəli olur. Şükriyyə xanım həyat yoldaşının ölümündən sonra "vətən xaininin arvadı" kimi uşaqları ilə birlikdə həbs edilir. Yeddi ildən sonra sürgündən azad edilsə də, ona Bakıda yaşamaq qadağan olunur. Yalnız 1955-ci ilin dekabrında ailə bəraət alır.

Tarix insan səhvlərini düzəldir. 1958-ci ildə Əhməd Cavadın "Şeirlər", 1961-ci ildə "Sən ağlama, mən ağlaram" kitabları çap olunur. Şairliklə yanaşı, həm də istedadlı tərcüməçi olan Əhməd Cavadın dilimizə çevirdiyi əsərlər - 1961-ci ildə Fransua Rablenin "Qarqantua və Pantaqruel", 1962-ci ildə Vilyam Şekspirin "Otello", "Romeo və Cülyetta", 1978-ci ildə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərləri işıq üzü görür.

Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan, bu yolda "xalq düşməni" damğası ilə güllələnən Əhməd Cavad, zaman gəldi ki, xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutdu. Azərbaycan var olduqca bu yer onun olacaq.

Böyük şair Əhməd Cavad ömrünün sonuna qədər milli istiqlal ideyalarına sadiq qaldı, hüquqları çeynənən bir ölkənin haqq səsi oldu. Təqiblər, məhbəsdəki işgəncələr onun iradəsini qıra bilmədi. O, bir dəfə də olsun xalqına və qələminə xəyanət etmədi. Əhməd Cavad son nəfəsinədək Azərbaycanın azadlığına sadiq qalmış və bu yolda şəhid olmuş vətənpərvər kimi, Azərbaycan istiqlalının böyük şairi kimi yaddaşlarımızdan heç zaman silinməyəcək, daim yaşayacaq…